**“TƏSDİQ EDİRƏM”**

“Azərbaycan Turizm Bürosu”
publik hüquqi şəxsin
İdarə Heyətinin sədri

Florian Sengstschmid

“2” may 2025-ci il

# “Loqotipdən istifadə”

# PROSEDURU

| “Azərbaycan Turizm Bürosu” publik hüquqi şəxs | | | |
|---|---|---|---|
| **Mehmanxanaların ulduz kateqoriyaları üzrə sertifikatlaşdırma orqanı** | | Sənəd №: | ATB/MUKSO/PR-19/25 |
| | | Nəşr tarixi: | 29.08.2022 |
| | | Dəyişiklik № | 01 |
| | | Dəyişiklik tarixi | 02.05.2025 |
| **Ünvan:** | Bakı, Üzeyir Hacıbəyli 134, AZ 1010 | | |

| HAZIRLADI | | | |
|---|---|---|---|
| A.S.A. | Vəzifə | İmza | Tarix |
| Qasımlı Mehriban İrza | Keyfiyyət üzrə menecer | | 02.05.25 |

## Sənədin razılaşdırılma/tanışlıq vərəqəsi

| № | Vəzifə | Ad, soyad | Status (vəziyyət) | imza | tarix |
|---|---|---|---|---|---|
| 1. | Sertifikatlaşdırma orqanın rəhbəri | Florian Sengstschmid | təsdiq etdi | | 02.05.2025 |
| 2. | Keyfiyyət üzrə menecer | Mehriban Qasımlı | hazırladı | | 02.05.25 |
| 3. | Qərəzsizlik Şurasının sədri, Qiymətləndirmə və qərarvermə Komissiyasının üzvü | Rəşad Əliyev | tanış oldu | | 02.05.25 |
| 4. | Qərəzsizlik Şurasının üzvü | Kəmalə Hüseynova | tanış oldu | | 02.05.25 |
| 5. | Qərəzsizlik Şurasının üzvü | Azərbaycan Hotel Asossasiyasının nümayəndəsi | tanış oldu | | |
| 6. | Qərəzsizlik Şurasının üzvü | Dövlət Turizm Agentliyinin nümayəndəsi | tanış oldu | | |
| 7. | Qərəzsizlik Şurasının üzvü | Orxan Əlili | tanış oldu | | 02.05.25 |
| 8. | Qiymətləndirmə və qərarvermə Komissiyasının üzvü | Nərmin Aktaş | tanış oldu | | 02.05.25 |
| 9. | Apellyasiya komissiyasının sədri | Sevda Əliyeva | tanış oldu | | 02.05.25. |
| 10. | Apellyasiya komissiyasının üzvü | Elvin Əliyev | tanış oldu | | 02.05.25 |
| 11. | Apellyasiya komissiyasının üzvü | Heybət Vəliyev | tanış oldu | | 02.05.25 |
| 12. | Ekspert – auditor | Rəşad Niyazov | tanış oldu | | 02.05.25 |
| 13. | Ekspert – auditor | Ağahüseyn Babayev | tanış oldu | | 02.06.25 |

## Daxil edilmiş dəyişikliklərin qeydiyyatı

| № | Bölmə | Dəyişikliyin qısa məzmunu | tarix | İmza |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |
| 4. | | | | |
| 5. | | | | |

## 1. Loqotipdən istifadə

ATB logotipinin istifadəsi zamanı bütün intellektual mülkiyyət hüquqları qorunur.

ATB, istifadəçilərdən loqotipin istifadə olunduğu yerdən çıxarılması və ya istifadəsini dayandırmağı tələb etmək hüququna malikdir.

Veb saytına və ya şəxsi və ya korporativ hesablarına keçid vermək üçün istifadəçilərə ATB logotipindən və ya aşağıdakı şəkillərdən istifadə etməyə icazə verilir.




ATB loqotipi hərəkətə çağıran sözlərlə müşayiət oluna bilər. Bu sözlər sans-serif-gilroy, serif-publico Azerbaijan, Gilroy Medium, Publico Azerbaijan Light İtalic, Gilroy extrabold, Publico Azerbaijan Medium, Publico Azerbaijan Medium İtalic şriftindən istifadə edilməklə yazıla bilər.

Loqonun istifadəsi zamanı müvafiq olaraq aşağıdakı rəngdlərdən istifadə olunmalıdır:

azərbaycan

TURİZM BÜROSU

R 95 G 37 B 159
C 82 M 97 Y 0 K 0
Pantone 267C

R 159 G 124 B 197
C 46 M 56 Y 0 K 0
Pantone 2577C

Heç bir halda ATB logotipi bu sənəddə müəyyənləşdiriləndən fərqli olaraq dəyişdirilə və ya başqa bir şəkildə istifadə edilə bilməz.

ATB adı və ya logotipi, əvvəlcədən razılığımız olmadan kitablar, broşuralar, sənədli filmlər, onlayn materiallar və s. daxil olmaqla məhdudlaşdırılmayan hər hansı bir malda, istehsal olunmuş məhsulda, nəşrdə istifadə edilə bilməz.

Bu göstərilən əsaslarla icazə verilən hallarda ATB loqotipi yalnız aşağıda göstərilən qaydalara uyğun olaraq istifadə olunmalıdır:

## 2. Logotipin rəngi



Əsas loqotipimiz kimi tünd bənövşəyi və açıq bənövşəyi kimi iki rəngdən istifadə olunur. Tünd bənövşəyi rəngdə olan halqanın üzərini ona nisbətən açıq bənövşəyi rəngdə olan yarım halqa örtərək sanki “a” hərfini əmələ gətirir və bunun aşağı hissəsində Azərbaycan

Turzm Bürosunun adı qeyd olunur. Tətbiqlərin böyük əksəriyyətində bu versiyanın istifadə edilməsinə icazə verilir.

Möhürün qoyulması hallarında ATB loqotipinin tamamilə qara rəngdə çoxaldılır.






Bu tətbiqetmələr istisnalar kimi qiymətləndirilməli və tətbiq olunmazdan əvvəl diqqətlə nəzərdən keçirilməlidir.

**Loqonun istifadəsi zamanı ölçülər:**

ATB loqotipinin aydın şəkildə oxunaqlı olmasını təmin etmək üçün həmişə onu digər vizual elementlərdən ayıran minimum ölçülər qorunmalıdır. Bu qayda bütün reproduksiya ölçülərinə aiddir və çap variantında minimum 18 mm, elektron variantda isə minimum 80 px olmalıdır.

**Nələrin qarşısını almaq lazımdır:**

1. Logotipə ofis və ya ölkə adlarının və ya xidmət xətti təsvirçilərinin əlavə edilməsi;
2. Hər hansı bir tətbiq üçün loqotipin yenidən tərtib edilməsi və ya hər hansı bir şəkildə loqotipin dəyişdirilməsi;
3. Logotipin yenidən rənglənməsi və ya fərqli rəng xüsusiyyətlərindən istifadə edilməsi;
4. Logotipin uzanması və ya təhrif edilməsi;
5. Logotipə kölgələr və ya digər vizual effektlər tətbiq etmək.

Bu qaydaları istənilən vaxt dəyişdirmək hüququmuzu özümüzdə saxlayırıq və dəyişikliklərdən xəbərdar olmağınız üçün bu şərtləri mütəmadi olaraq nəzərdən keçirməyiniz tövsiyə olunur.

MUKSO sertifikatlaşdırılmış obyektdən aşağıda göstərilənlər barədə razılaşmanı (ATB/MUKSO/S – 0001.21 Forma sənədin sonuna əlavə olunur) imzalamağı tələb edir:

a) sertifikatlaşdırma sxeminin müvafiq müddəalarını yerinə yetirmək;
b) səriştəlilik sertifikatından və loqotipdən yalnız alınmış sertifikatda göstərilən sahədə istifadə etmək;
c) səriştəlik sertifikatından elə istifadə etmək ki, sertifikatlaşdırma orqanına pis reputasiya yaranmasın və sertifikatlaşdırmaya aid olan, sertifikatlaşdırma orqanın çaşqınlığa sala biləcəyi və ya sanksiyalaşdırılmamış bəyanat verilməsin;
d) səriştəlilik sertifikatının qüvvədə olma müddəti dayandırıldıqdan və ya ləğv edildikdən sonra sertifikatlaşdırma orqanı tərəfindən sertifikatlaşdırılmış obyektin statusu barədə informasiyadan istifadə etməyi dayandırmaq, həmçinin verilmiş sertifikatı sertifikatlaşdırma orqanına qaytarmaq;
e) səriştəlilik sertifikatından səhv izahata yol verilmədən istifadə etmək.

Nəşriyyatda, kataloqlarda və s. sertifikatlaşdırmaya əsaslandırılmamış istinadlar və ya sertifikatların, işarələrin və ya ATB loqotipinin çaşqınlığa salan istifadəsi, sertifikatın qüvvədə olma müddətinin dayandırılması və ya ləğvi, pozuntular barədə nəşri və lazım olarsa, digər hüquqi üsullar kimi müvafiq tədbirlərin görülməsi məqsədilə araşdırılır. Araşdırma zamanı obyektin sertifikatdan və/və ya loqotipdən düzgün olmayan istifadəsi sübut olunarsa, sertifikatın qüvvədə olma müddətinin dayandırılmaqla həmin uyğunsuzluğun

aradan qaldırılması üçün müddət təyin olunur. Təyin olunmuş müddət ərzində uyğunsuzluqlar aradan qaldırılmazsa, bu, obyektə verilmiş sertifikatın ləğvi üçün əsasdır.